# KAMANÇA YANĞISI

## *Tanınmış kamançaçalan Mirnazim Əsədullayev yarım əsri alnıaçıq yola saldı*

*SƏNƏTKAR*

*Knyaz ASLAN*

Azərbaycan musiqi tarixində özünəməxsus yeri olan muğam sənəti yüzillərdir ki, xalqımızı dünyaya tanıda-tanıda üzü gələcəyə doğru yol gedir.

Varlığımızın və ruhumuzun daşıyıcısı olan milli muğamatımızın ecazkarlığı ustad xanəndələrimizin bənzərsiz ifasında, mahir tarzənlərimizin və kamançaçalanlarımızın misilsiz çalğısında bizi yerdən göyə qaldırır, göydən yerə endirir.

Xanəndə… Tarzən… Kamançaçı…

Milli muğam üçlüyü…

Bir-birini ilhamlandıran, bir-birini tamalayan, bir-birini şöhrətləndirən üç xalq sənətçisi…

Biri hər üçünün ifasına cavabdehdir, hər üçü birinin…

Məşhur xanəndələrimiz çox olub. Yenə var…

Ustad tarzənlərimiz tarımızın şərəfini keçmişdə də uca tutublar, indi də…

Mahir kamançaçılarımız kamanımızı dünyaya tanıdıblar…

Onların arasında Mirnazim Əsədullayevin yeri aydın görünür. Özünəməxsus dəst-xətti, üslub bənzərsizliyi, ifa şirinliyi olan sənətçimizin adı Azərbaycandan çox-çox uzaqlarda tanınır.

Mirnazim kamançanı ucaldır, kamança Mirnazimi… İllərin sınağından alnıaçıq, üzüağ çıxıb…

Mirnazim Əsədullayev 1951-ci ildə Bakıda dünyaya göz açıb.

1969-1973-cü illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda kamançanın sirlərinə yiyələnib. Sonra təhsilini Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının kamança bölməsində davam etdirib.

1971-1976-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin xalq çalğı alətləri orkestrində birinci kamançaçı kimi fəaliyyət göstərib. Bir müddət Baba Salahov adına xalq çalğı alətləri ansamblında uğurla çalışıb. Görkəmli muğam ustalarımızdan Hacıbaba Hüseynovu,



Canəli Əkbərovu, Arif Babayevi, Ağaxan Abdullayevi, Teymur Mustafayevi və başqalarını ustalıqla müşayiət edib.

ABŞ, İran, İraq, İsveç, Fransa və digər ölkələrdə digər sənətçilərimizlə yanaşı milli musiqimizi yüksək səviyyədə təbliğ edib.

1994-cü ildə Hacıbaba Hüseynov adına muğam üçlüyü yaradıb.

Hazırda Bülbül adına Bakı Musiqi Məktəbində, Asəf Zeynallı adına Dövlət Musiqi Kollecində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Uni-

versitetində peşəkar musiqiçi kimi kamança musiqi alətinin incəliklərini gənc nəslə öyrədir. Mirnazim müəllim Xəzər Universitəsinin tələbələrinə də həvəslə dərs deyir.

Məşhur xanəndəmiz Hacıbaba Hüseynovu özünə mənəvi ata sayan Mirnazim Əsədullayev etiraf edir ki, onun zəngin ifaçılıq məharətindən çox cəhətləri əxz eləyib.

İftixarla xatırlayır ki, tanınmış tarzən Ağasəlim Abdullayevlə birgə vaxtilə bu ustad sənətçisini müşayiət edib. Və nə yaxşı bu üçlüyün ifası lentin yaddaşında əbədiləşib.

Mirnazim Əsədullayev kamançamızın fəryadını, iniltisini, ah-naləsini, hay-harayını keçmişimizdən bugünümüzə çatdırmağı, bugünümüzdən gələcəyimizə ötürməyi bacaran sənətçilərimizdəndir.

Ustad kamançaçımız, xalq artisti Habil Əliyev (Kaman) deyir ki, Mirnazim muğamatımızın, xalq mahnılarımızın qədrini bilən, ruhumuzun tərcüməni olan milli musiqimizi layiqincə qorumağa, layiqincə təbliğ etməyə gücü və qüdrəti çatan ifaçıdır.

Ustad haqlıdır!

Mirnazim Əsədullayevin sənət yanğısı heç zaman sönən deyil. Çünki bu od-alov yaşı minilliklərlə hesablanan əsrarəngiz xalq musiqisinə qırılmaz tellərlə bağlı olan yanar bir ürəkdən güc alır.

"Segah", "Çahargah", "Rast", "Hümayun", "Şur", "Mahur", "Zabul" və s. kimi muğamlarımızın sözlə ifadə olunmayan iç dünyasını kaman dilində açıb göstərən sənətkarımız bu gün sənətin kamillik zirvəsindədir. Bu zirvədən rəngarəng musiqi aləmi tam aydınlığı ilə görünür.

Mirnazim qardaşımıza – Azərbaycanımızın sayılıb-seçilən sənətçisinə cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

50 yaşlı Mirnazim kamançanın, milyon yaşlı kamança isə Mirnazimin vurğunudur.

Qoy bu vurğunluq əbədi olsun!